# Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü

27 aprel 2023-cü il tarixində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi çərçivəsində Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda konfrans keçirilmişdir. Konfrans iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər. Qəbələ Rayon İcra Hakimiyyətinin, idarə müəssisə və təşkilatların nümayəndələrinin, ziyalıların, ağsaqqalların və rayon ictimaiyyətinin iştirakı ilə keçirilən konfransda ilk olaraq Azərbaycanın Dövlət Himni səslənmiş, Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev konfrans iştirakçılarını salamlayaraq Azərbaycanın milli intibah dövrünün müdrik dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olduğunu, məhz Ulu Öndərin Azərbaycan dövlətçiliyini xaos və böhrandan çıxardığını, xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirdiyini qeyd etmiş, dahi rəhbərin dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi yaratdığını, ölkəmizin davamlı inkişafının uzunömürlüyünü təmin edən irs, siyasi məktəb miras qoyduğunu bildirmiş, Ümummilli liderin ölkə həyatının bütün sahələrində quruculuğun, davamlı inkişafın və islahatların banisi olduğundan bəhs etmişdir. Konfransda çıxış edənlər Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərlik etdiyi 34 ilin milli intibah dövrü kimi tarixi yaddaşımıza əbədi həkk olunduğundan, bu dövrün həyatımızın bütün sahələrində süratli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü olduğundan danışmışlar.



Sonda "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" adlı videoçarx nümayiş olunmuşdur.

# Vətəndaşların qəbulu





14 aprel 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər RİH başçısı tərəfindən dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür.

# Səyyar qəbullar

Hər zamanın öz tələbi olur. İnsanların yaşayış səviyyəsi zamanla dəyişir, hətta qarşılaşdıqları problemlər də bəzən zamanla, günün tələbləri ilə ölçülür. Təbii haldır ki, hər zamanın da xeyirxahları olmuş və onlar da zamanın tələbinə uyğun hərəkət etmişlər. Qarşılaşdıqları maneələri dəf etmək üçün insanlar şüurlu surətdə ta qədimdən bir-birinə kömək etmişlər. Ona görə də xeyirxahlıq əməlləri bizə ulularımızdan məsəl və ən gözəl əməl kimi həmişə qüvvədədir. Zaman dəyişdikcə bu yeniliyə insanlar alışarkən, uyğunlaşarkən müxtəlif problemlərlə qarşılaşırlar. Bu halda xeyirxah insanlar fəaliyyətə başlayır və ehtiyacı olan insanlara daima köməklik göstərirlər. İnsanların qarşılaşdıqları problemlərin aradan qaldırılması üçün aidiyyatı təşkilatlar və xeyirxah əməllər sahibləri fəaliyyətə başlayır, insanların narazı olduqları problemlər həll olunur.





Yengicə kəndi.



Böyük Pirəli kəndi.



Hacıalılı kəndi.

Hər bir problem aid olduğu idarə və müəssisə, qurumlar tərəfindən həll olunur, onlara həm psixoloji, həm də müəyyən mənada maddi dəstəklər olunur və insanlar öz həyatlarına davam edirlər.

Məlum olduğu kimi, rayonumuzda ayrı-ayrı qəsəbə və kəndlərdə səyyar qəbulların keçirilməsi artıq ənənə şəklini almışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonumuzun qəsəbə və kəndlərində sakinlərlə görüşlər keçirir və onların qarşılaşdıqları problemlərin həll olunmasını diqqət mərkəzində saxlayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Keçən il olduğu kimi bu il də səyyar qəbulların keçirilməsi davam edir. Bu ilin aprel ayından səyyar qəbul Yengicə, Böyük Pirəli, Hacıalılı kəndlərində və Qəbələ şəhərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.






Qəbələ şəhəri.